# III - Meişet Neğmeleri

## Ağılar

OĞUL HEY...

1. Sel geldi belden oldu.
Qan gusdu yelden oldu.
Vay düşdü sarayıma,
El geldi harayıma.
Dirsekli, direkliydin,
Sen aslan bilekliydin.
Hay vergil harayıma,
Vay düştü sarayıma
Oğul hey,
Oğul hey,
Oğul hey,
Oğul hey.

ZÜLFÜ QIZILIQIZIM

2. Gün batdı, hana[1] qaldı,
Ay doğdu, dana qaldı.
Zülfü qızılı qızım.
Qebri qızılı gizim.
Gül üzün naz görmedi.
Kipriyin yaz görmedi.
Gün batdı hana qaldı,
Ay doğdu dana qaldı.
Zülfü qızılı qızım.
Qebri qızıh qızım.

SARI GÜL

3. Sarı gönce, sarı gül,
Bilirdin solasısan,
Açmayaydın barı gül.

ŞAXSEY - VAXSEYLER

1. Gelen balam olaydı,
Şaxsey-vaxsey.[2]
Yurdum talan olaydı,
Vaxsey-şaxsey.
Ölümün yalan olaydı
Şaxsey-vaxsey.

2. Ağacda xezel ağlar,
Şaxsey-vaxsey.
Dibinde gözeî ağlar,
Vaxsey-şaxsey.
Cavan oğlu ölenler,
Şaxsey-vaxsey.
Sergerden gezer ağlar,
Vaxsey-şaxsey.

3. Yaman günüm daldadır[3],
Vaxsey-şaxsey.
Karvan geldi yoldadır,
Şaxsey-vaxsey.
Keher atın yoldadır,
Vaxsey-şaxsey.

4. Aman aman oldu gel,
Şaxsey-vaxsey.
Halım yaman oldu gal,
Vaxsey-şaxsey.
Bir de seni görmerem, ,
Şaxsey-vaxsey.
Axır zaman oldu gel,
Vaxsey-şaxsey.

VESFİ-HALLAR

1. Bülbül oxur yuvada,
Can gülüm, can, can.
Qanad çalır havada,
Can gülüm, can, can.
Emim oğlu sağ olsun,
Can gülüm, can, can.
Men niye gedim yada,
Can gülüm, can, can.

2. Oturmuşdum sekide,
Çan gülüm, can, can.
Üreyim sek sekide,
Çan gülüm, can, can.
Üç qızıl alma geldi,
Can gülüm, can, can,
Bir gümüş nelbekide[4],
Can gülüm, can, can.
Sinebendi gümüşden,
Can gülüm, can, can.
Bize de nesib olsun,
Can gülüm, can, can.
Heybedeki yemişden,
Can gülüm, can, can.

3. Atım gelir enişden,
Can gülüm, can, can.
Sinebendi gümüşden,
Can gülüm, can, can.
Bize de nesib olsun,
Can gülüm, can, can.
Heybedeki yemişden,
Can gülüm, can, can.

1. halı tezgahı 2. muharrem ayında Hz. Hüseyin'in katline tutulan yas merasimi 3. arkadadır 4. tepsi

4. Keher[1] at nah neyler,
Can gülüm, can, can.
Gözel qız xah[2] neyler,
Can gülüm, can, can.
Yarı göyçek olanlar,
Can gülüm, can, can.
Dövletü-malu neyler,
Can gülüm, can, can.

5. Qapıdan biri geldi,
Can gülüm, can, can.
Gözümün nuru geldi,
Can gülüm, can, can.
Bu arxı kim arıtdı
Can gülüm, can, can.
Su bile duru geldi,
Can gülüm, can, can.

6. Ay süzüldü oymaqdan
Çan gülüm, can, can.
Öldüm xına qoymaqdan,
Can gülüm, can, can.
Barmaqlanm yanıbdı,
Can gülüm, can, can.
Çubuğa od qoymaqdan,
Can gülüm, can, can.

7. Men âşiqem ay meler,
Can gülüm, can, can.
Bulud altdan ay meler.
Can gülüm, can, can.
Deryada bir gül bitib,
Can gülüm, can, can.
Su deyiben ay meler,
Can gülüm, can, can.

8. Doğdu güneş qırmızı
Can gülüm, can, can.
Sesledi oğlan, qızı.
Can gülüm, can, can.
Her birimiz bir çiçek,
Can gülüm, can, can.
Bir baxçanm ulduzu,
Can gülüm, can, can.

## Toy Neğmeleri
## (Adaxlı Oxşamaları)

### ADAXLININ ADINI DE

1. A, yellene yellene,
Adaxhmn[3] adını de...
- Yaylığı yellenen qız,
Adaxlmm adını de...
- Bura qonaq gelen qız,
Adaxhnın adım de...
- Saçları çehrayı[4] qız,
Adaxlmın adını de.
- Gözleri xurmayı[5] qız,
Adaxlınm adını de.
- Qaşlan sürmeli qız,
Adaxhnm admı de.
- Üzünü görmeli qız,
Adaxlının adını de.

### YAR-YAR

2. Ia yaylığı yellenen,
yar-yar.
Şirin-şirin dillenen,
yar-yar.
Şaqqa[6] çekib güleydin,
yar-yar.
Bize qonaq geleydin,
yar-yar.
Telleri çehrayı, yar.
Gözleri xurmayı yar.
Ha, yaylığı yellenen,
yar-yar.
Şirin-şirin dillenen,
yar-yar.

### GELDİ OĞLAN ADAMI..

3. Heyetimiz nanadır[7],
yar-yar.
Üstü balaxanıdır[8],
yar-yar.
Yarımın eynindeki,
yar-yar.
Atlas ile xaradır[9],
yar-yar.
Geldi oğlan adamı,
yar-yar.
Oğlan sındır[10] badamı,
yar-yar.
Sındır qoy dalı qatda,
yar-yar.
Görmesin qız adamı,
yar-yar.
Sirem-sirem[11] söyüdler,
Sirem durub söyüdler.
Yüz igidin içinde,
Yene bizim igidler.

Leme[12] çıxma, damcıdır,
Köyneyim narincidir[13],
Oğlan qızm derdinden,
Ölmese zarıncıdır.[14]
Geldi oğlan adamı
yar-yar.
Ağam, sındır badamı,
yar-yar.

1. doru 2. ben 3. nişanlı, yavuklu 4. kızıl gül rengi 5. açık kahverengi 6. el çırpma, alkış 7. oyun havası 8. birjeradı 9. kendinden desenli parlak ipek parça 10. kır 11. sıra sıra 12. duvar rafı 13. limon rengi 14.hastalıktan bitkîn^ûşmûş

4. Çızılgülün destesiyem,
yar-yar.
Bacıların bestesiyem,
yar-yar.
Qonşu meni xeber alsa,
yar-yar.
Deyin yarın xestesiyem,
yar-yar.
Anamın bircesiyem,
yar-yar.
incilerin indsiyem,
yar-yar.
Qızılgülün gönçesiyem,
yar-yar.
Kipriyimde yaş gile[1],
Meh düşdü qızılgüle.
Ay yar, atı yeherle,
Dur gedek, qaynım gile.
Bacıların bestesiyem,
yar-yar.
Qızılgülün destesiyem,
yar-yar.

AY GEDİRSEN MENİ APAR

5. Ay gedirsen, meni apar[2],
yar-yar.
Ay getme qiyamet qopar,
yar-yar.
Ay gözeller baxçasmdan,
yar-yar.
Her kes öz yarını tapar[3],
yar-yar.
Qızılgülü dermerem,
yar-yar.
Derib yere sermerem,
yar-yar.
Yarım evde olmasa
yar-yar.
Men yatağa girmerem,
yar-yar.
Sandıq üste mafara,
yar-yar.
Gedin deyin yavere,
yar-yar.
Menim yarım uşaqdır,
yar-yar.
Yollamasın sefere,
yar-yar.

DURUN GEDEK YARGİLE

6. Gedirem yolum ile,
Oynurdum gülüm ile.
Yarı yoldan eyledim,
Lal olmuş dilim ile.
Nar, nar, nargile
Durun gedek yargile.

Xeber yetdi bülbüle Meh
düşdü qızılgüle.
Oğlan atları getir.
Dur gedek qaynımgile ,
Nar, nar, nargile
Durun gedek yargile.

Gedirdim qıraq[4] ile,
Belimde yaraq[5] ile
İtirdim gözeli yarı,
Axtardım soraq ile
Nar, nar, nargile
Durun gedek yargile.

Ağ alma dilim-dilim,
Açıbdı qızılgülüm.
Eğer xetrine deysem
Dönmesin bir de dilim.
Nar, nar, nargile
Durun gedek yargile.

HEY GÜLÜM MAŞALLAH

7. Bu bağı bağ eylerem
Hey gülüm maşallah.
Her yanı çırdağ eylerem,
Hey gülüm maşallah.
Bir fincan pürreng çaya
Hey gülüm maşallah.
Yarı qonaq eylerem
Hey gülüm maşallah.
Yar yaman aldatdı meni
yar-yar.
Aldadıb oynatdı meni,
yar-yar.
Qızılgülü üzerem,
Hey gülüm maşallah.
Yoluna gül düzerem,
Hey gülüm maşallah.
Gedirsen tez qayıt[6] gel,
Hey gülüm maşallah.
Hesretine dözmerem[7],
Hey gülüm maşallah.
Yar yaman aldattı meni,
yar-yar.
Aldadıb oynatdı meni,
yar-yar.

MEN ÖLÜM SEN QAL OĞLAN

8. Oğlan sen yarıyıbsan[8]
Telini darıyıbsan.
Sifetin bir şey deyil,
Könlüme yarıyıbsan.
Hey gülü mangal oğlan
Men ölüm sen qal oğlan
Hey gülü varaq-varaq
Teline salma daraq,
Eğer meni sevirsen
Ellere yayma soraq
Hey gülü mangal oğlan
Men ölüm, sen qal oğlan.

üzümtanesi 2^götür 3rtmhrr 4.iarşı 5. silah 6. dön 7. dayanamam 8. arzuna çatmışsın

## Şirni[1], Xonça[2] ve Nişan Taxma Neğmeleri

QARDAŞ, ŞİRNİN MÜBAREK

9. Suyun bendine qurban
Qardaş kendine qurban.
Heyetde at yeherli
Sinebendine qurban.
Mübarek, ay mübarek
Qardaş şirnin mübarek

Nazik çekin ipliyi,
Kesmeyin köynekliyi.
Qardaşım bir qız sevib
Gözellerin kekliyi...
Mübarek, ay mübarek,
Qardaş şirnin mübarek

AL ALMA, QIZIL ALMA

10. Ketan ketana qurban,
Ketan satana qurban.
Evde yerin sermişem,
Yalqız yatana qurban.
Al sana, qızıl alma,
Süfreye düzül, alma.

Al alma, qızıl alma,
Xonçaya düzül alma.
Bilseydim yar gönderib,
Saxlardım yüz il, alma. Al
alma, qızıl alma, Süfreye
düzül alma,

Qardaş ovuna geder,
Baxar boyuna geder. Bu
bayramın xonçası,
Adaxlm[3] öyüne geder.
Al alma, qızıl alma,
Süfreye düzül alma,

Qardaş, adma qurban,
Alma dadına qurban.
Seni tekçe demerem,
Gül adaxlına qurban Al
alma, qızıl alma,
Süfreye düzül alma,

SAMAVARI QAYNADAN VAR

11. Qızıl üzük laxladı[4],
Verdim anam saxladı.
Anama qurban olum,
Meni tez adaxladı.
Samavan gaynadan yar,
Qızıl üzük oynadan yar.

Mexmerden[5] başmağım[6] var.
Dağ-dere aşmağım var,
Elden igid seçmişem,
Quşulub qaçmağım var.
Samavan gaynadan yar,
Qızıl gül oynadan yar.

Keher atı çapmışam[7],
Tendire çörek yapmışam.
Qınamasm el meni, Yarı
özüm tapmışam[8].
Samavan gaynadan yar,
Qızıl üzük oynadan yar

ŞALI-ŞALA BAĞLAR GEDER

12. Başda şalım güllüdür,
Ortası bülbüllüdür.
Dünen yarımı gördüm,
Eceb[9] şirin dillidir.
Şalı şala bağlar geder
Nişana bağlar geder.

Gülü şala bağlar geder,
Şalı şala bağlar geder
Oğlanın bacıları, Nişana
bağlar geder, Şalı şala
bağlar geder

Bağımda heyva sarı,
Dermişem şirin narı,
Hamıdan[10] şirin olar,
Kiçik qardaşm yarı, Şalı
şala bağlar geder Nişana
bağlar geder.

AY QIZ NİŞANIN GELİR

13. Men âşiqem gün geler,
Ay dolanar, gün geler.
Gözlerin aydın olsun.
Nişanın bu gün geler.
Ay qız nişanın gelir,
Qırmızı şalın gelir.

Oğlan adın Yaqubdur.
Gün dağlara doğubdur.
Senin verdiyin üzük,
Barınağımı boğubdur.
Ay qız nişanın gelir,
Çhrmızı şalm gelir.

Gedin deyin Cemile
Pulu vermesin yele.
Pulu versin şal alsın,
Bağlasın ince bele.
Ay qız nişanın gelir,
Qırmızı şalın gelir.

1. şeker 2. bohça 3. nişanlı 4. örtüldü 5. kışa havlı parlak ipek 6, birjür ayakkabı 7. hazlı sürmek 8. bulmuşum-
9. çok güzel, âla 10. herkesten

TER BENÖVŞEi DERMEYE GELMİŞEM

14. Gelin gedek, nar dermeye gelmişem,
Narın budağın eymeye gelmişem.
Ter benövşe dermeye gelmişem,
Yarın camalın görmeye gelmişem.

Teline güller düzmeye gelmişem
Nişanında qol açıb süzmeye gelmişem.
Üzünde xalın görmeye gelmişem
Yusif camalm göremeye gelmişem.

Ter benövşe dermeye gelmişem,
Yarın camalm görmeye gelmişem.

MÜBAREK OLSUN GELİNİN OJEDEMİ

15. Ay burdan uzaqdır Gence
Ay at yomlar gedince,
Yollara xonça düzerem.
Xan qardaşım gelince
Xonçaya düzdük, noğulu[2],
badamı
Mübarek olsun gelinin .
qedemi...
Qurban kesim sesine,
Gülüne, benövşesine,
Qardaşm yarı gelir,
Çıxm tamaşısma.
Xonçaya düzdük noğulu,
badamı,
Mübarek olsun gelinin
qedemi..
Ay gülü xonçadadır,
Atları yoncadadır,
Qurban olum qardaşa
Güzgüsü[3] xonçadadır
Xonçaya düzdük noğulu,
badamı,
Mübarek olsun gelinin
qedemi..

GELİN TAXTIN MÜBAREK

16. Qızm baxtı ağ olsun,
Ezizleri sağ olsun.
Gelin, getdiyin yollar,
Yanıb çılçıraq olsun.

Qara at nalı neyler,
Gözel qız xalı neyler,
Adaxlısı gözel olan
Dövleti, malı neyler.

17. Bu dere uzun dere,
Dereye geler bere[4]
Burda bir bağ salmışam
Yar gele üzüm dere
Gelin, baxtm mübarek,
Gelin, taxtm mübarek!

Bulağın başı ile,
Dibinin daşı ile
Gelin taxta çıxıbdır,
Sağdışı soldışı ile
Gelin, taxtm mübarek,
Gelin, baxtm mübarek!

Dur ayağa, qız gelin,
Tellerini düz gelin.
Toyxana[5] seni gözler,
Düş ortada süz gelin,
Gelin, baxtın mübarek,
Gelin, baxtın mübarek.

ÇAYNANAN QURBAN BOYUNA, AY OĞLAN

Toy ele, gelim toyuna,
ay oğlan,
Qaynanan qurban boyuna,
ay oğlan,
Qolbağım qolundadır,
Gözüm yar yolundadır.
Sağdışm sağ yanında,
Soldışm solundadır.
Toy ele gelim toyuna,
ay oğlan,
Qaynanan qurban boyuna,
ay oğlan,
Qerib eller barışan[6],
Eceb göyçek sarısan,
Düşse qızlar üstüne,
Söyle kimin yarışan.
Toy ele gelim toyuna
ay oğlan,
Qaynanan qurban boyuna,
ay oğlan!.

KINELIM - KINEL

18. Beslemişem ter gülümü,
Kinelim. Firuzenin
toy günüdür.
Kinelim. Canım
sene qurban olsun
Kinelim. Kinelim
ey, can Kinelim, Kinelim.
Bir gecenin qonağısan
Kinelim.
Kinelimi
Xoşbext[7] eyle yaradan.
Kinelime
Boxça tikin xaradan8
Kinelim ey, can
Kinelim, kinelim

1. menekşe 2. bir tür şekerleme 3. ayna 4. bağ ve bahçeler arasındaki patika 5. düğünevi 6. meyve, mahsûl 7. mutlu
87 kenefinden desenlîlpek

AY ÜZÜ XALLICEYRAN

19. Dağların o üzünde,
Ceyran otlar düzünde.
Menim yarım gözeldir,
Qoşa xal var üzünde.

Ay qoşa xallı ceyran
Lebleri ballı ceyran,
Vermerem öz xalımı,
Gelse yüz elli ceyran.

KEMER KESDİ BELİMİ

20. Men âşiq tar çalana,
Tan ver tar çalana.
Meni yardan edenin,
Üreyi parçalana.
Kemer kesdi belimi,
yar-yar,
Apar di yar hilimi[1],
yar-yar.

Desmahn gülü yansın,
Od düşsün günü yansın.
Meni yardan edenin
Ağzında dili yansın.
Kemer kesdi belimi,
yar-yar.
Apardı yar hilimi,
yar-yar.

Geline bax, geline,
Kemer taxıb beline
Gelinin ince beli.
Düşdü namerd eline.
Kemer kesdi belimi,
yar-yar,
Apardı yar hilimi
yar-yar.

BU EVİN QONAQ QIZI

21. I.
Ay gece uzun, ay batmaz,
Hörmet ederik sene.

II.
Hörmet ederik sene,
Ay nişanlı qızlar yatmaz;
Ay sen kimi gözeli,
Ay tanrı bir de yaratmaz.
Hörmet ederik sene.

Birlikde:
Ay bu evin qonaq qızı,
Hörmet ederik sene,
Ay bu evin böyük qızı,
Xidmet ederik sene,
Ay bu evin qonaq qızı
Hediyye vererik sene.

Ucadır boyun senin,
Ne xoşdur toyun senin.
Bir oğlana getmesin,
Camalda tayın senin.

ERTEDEN? YOLA SALIN...

22. I. deste:
Alma atdım nişana
Bu gece xanım bacı bize qonaqdır.

II. deste:
Erteden yola salın yolu iraqdır.

I. deste:
Evleri gün düşene.

II. deste:
Yolu iraqdır.

I. deste:
Bele, yazığım gelir,
Bu gece xanım bacı bize qonaqdır.

II. deste:
Erteden yola salın yolu iraqdır.

I. deste:
Qerib yere düşenim, bize qonaqdır,
Bu gece xanım bacı bize qonaqdır,
Erteden yola salın yolu iraqdır.

Narinci[3] döşek üzü,
Biz ne tanırdıq sizi.
O qeder gedib-geldiz
Tamaha saldız bizi.

Getdiyin tanış olsun,
Yara sifariş olsun.
Yara yaylıq demişem
Zeri[4] beş qarış olsun.

ELLERE XINA YAXARLAR

23. I. deste:
Bu evlerin uzunu
Ellere xına yaxarlar.

II. deste:
Çoban qaytar[5], quzunu
Tellere xına yaxarlar.

I. deste:
Gedin deyin emime,
Ellere xına yaxarlar.

II. deste:
Versin mene qızmı
Tellere xma yaxarlar.

1. zencefil türü bir bitki 2. erken, sabah erken 3. turuncu 4. İtim 5. geri getir

I. deste:
Çekil burdan haramzada,
Pencereden baxarlar.

Gelmişem derim seni,
Qelbime hörüm[1] seni.
Qapı, pencere bağlı
Bes nece görüm seni.

XINANIYAXIN DESTİNE-DESTİNE

24. El eyledim gelesen
Danışıban, gülesen
Azarımı[2] alasan
Düşmenime veresen
Ay xmanı yaxın destine-destine
Xeber getsin düşmenine, dostuna.
Su gelir bu araman,
Doldur ver bardağınan.

Yarın yaxasm açdım,
Xınalı barmağınan.
Ay xınanı yaxm destine-destine
Xeber getsin düşmenine, dostuna.

Desmalımız uc-uca,
Gencede halm nece?
İkimizin sohbetin
Ederik gelen gece.
Ay xmanı yaxm destine-destine
Xeber getsin düşmenine, dostuna.

Kemer bağla beline
Şirni[3] verin eline
Gel bizim eziz gelin
Xına qoyum teline.
Ay xmanı yaxın destine-destine
Xeber getsin düşmenine, dostuna.

GELİNİ HAMAMA GÖNDERİN!

25. Nazbalışı[4] üzül[5] qoy,
Üste bir cüt qızıl qoy
Yarı hamama gedir,
Hamam pulun hazır qoy.
Gönderin, hamama gönderin! .
Gelini hamama gönderin!
Yavaş yeri toz olar,
Qara kostyum boz olar.
Eyil desmalı götür,
Men görürsem, söz olar.
Gönderin hamama gönderin!
Gelini hamama gönderin!

Bir özüne bax neşen,
Meni beyenmeyesen.
Ele oğlana getdim
Cilovdarım[6] gelesen.
Gönderin hamama gönderin!
Gelini hamama gönderin!

BAŞIN BAĞLI QIRMIZI

26. Gelin gedek qabağa[7]
Sebrim yoxdur sabaha
Canım olsun sadağa.
Hamamdan çıxdı hacı qızı
Başı bağlı qırmızı.

Ucadır boyun gözel,
Gözeldir soyun gözel
Olacaq toyun gözel,
Hamamdan çıxdı hacı qızı
Başı bağlı qırmızı.

Dodağı yemelidir,
Yaxası düymelidir.
Teze hamamdan çıxıb
Qoynuna girmelidir.
Hamamdan çıxdı hacı qızı
Başı bağlı qırmızı.

OĞLANI HAMAMA GÖNDERİN

Ay deyirman boş dolanar,
Ay suyu serxoş dolanar
Ay qurban olum qardaşa
Ay elinde quş dolanar
Dönderin Revana, dönderin,
Oğlanı hamama gönderin.

Ay âşıq aydın olsun,
Ay doğub aydın olsun.
Eşitdim yarın gelib
Gözlerin aydm olsun.
Dönderin Revana, dönderin,
Oğlanı hamama gönderin.

Elin tamaşası var,
Tutubdur, maşası var.
Burda bir toy qurulub,
Eceb tamaşası var.
Dönderin Revana, dönderin,
Oğlanı hamama gönderin.

Burda bir toy qurulub,
Eceb tamaşası var.
Dönderin Revana, dönderin,
Oğlanı hamama gönderin.

AY LAÇIN OĞLAN GELİR

28. Ay qardaş, ağa qardaşım,
Ay deste yığıb yoldaşın,
Ay qardaş otağa gelir,
Ay çekilin, tez yol açın.

Birlikte:
Ay laçın oğlan gelir,
Göyerçin oğlan gelir,
Ağa qardaşım gelir,
Qoy qaçım oğlan gelir.

1. öreyim 2. dert, hastalık 3. şekerleme 4. yastık 5. ayrı 6. atın başım çeken 7. öne, ileriye

Xoruzun dan sesine
.Oyandım ban sesine
Yarım meni gözleyir
Olum qurban sesine.

QORXURAM YOLDA QALA DELLEKi OĞLAN

29. Ay yar gelir güle-güle,
Ay xeyli şen ehval ile,
Ay elinde ipek desmal,
Ay terini sile-sile.
Hamamdan geldi bala dellek oğlan
Qorxuram yolda qala dellek oğlan.

Qardaş geden qoyuna,
Men qurbanam boyuna.
Qardaşm qazancmı
Evvel verrem toyuna.
Hamamdan geldi bala dellek oğlan
Qorxuram yolda qala dellek oğlan.

Gel ey obadan oğlan,
Evi abadan[2] oğlan
Gülün yarpıza dönsün
Yarı yubadan[3] oğlan
Hamamdan geldi bala dellek oğlan
Qorxuram yolda qala dellek oğlan.

AL ALMAĞA GELMİŞEM

30. Al almağa gelmişem
Şal almağa gelmişem,
Oğlanın bacısryam
Aparmağa[4] gelmişem.

Bu gün bağa gelmişem,
Qonça gülü dermişem.
Sizde bir qız görmüşem,
Aparmağa gelmişem.

Bu gün bağa gelmişem,
Baxa-baxa gelmişem
Ağa qardaş toyunda
Oynamağa gelmişem.

TUNQAY MELEYK

31. Bu evler hündür[5] evler,
Tunqay Meleyk[6]
içinde olsun toylar
Tunqay Meleyk
Çalsınlar-çağırsmlar
Oynasın beste boylar[7],
Tunqay Meleyk
Evleri yan yuxarı,
Yandırmaym buxarı
Girdik dost mehlesine
Demedi keç yuxarı.

QAYNI BAĞLAR BELİNİ

32. Ay bu yolun iki qatı,
Asta sürerler atı,
Bedelen camahatı,
Verin bizim emaneti.
Qovma bizi qapıdan
El çekmerik yaxandan.

O tay- bu tay[8] bizimdir,
Aralığı qızıldır.
İki dünya bir olsa
Nazlı xanım bizimdir.
Qovma bize qapıdan
El çekmerik yaxandan.

O tay, bu tay bir olsun,
Aralığı gur olsun.
O tayın qız-gelini
Bu taya dilbir olsun
Qovma bizi qapıdan
El çekmerik yaxandan

33. Yerisin ay yerisin,
Ağ topuğu gül bürüsün.
Ay ağa qardaş toyunda
Ay on beş qaval çalınsın.
Verin bizim gelini
Qaynı bağlar belini.

Evinin yanı çiçek
Yarpağı leçek-leçek[9].
Qardaşın adaxlısı,
Besteboy, özü göyçek.
Verin bizim gelini
Qaynı bağlar belini.

Bağ gülünü yar sular,
Könül gözel arzular,
Çıx göster camalını
Qoy baxsm tamamlar.[10]
Verin bizim gelini
Qaynı bağlar belini.

XIRDA MİRVARİDEN[11] DÜZÜN TELİNE-TELİNE

34. Ay Selime, qem eyleme,
Bu şadlığı kem eyleme. .
Şirin-şirin gülüb danış,
Gözlerini nem eyleme.
Yaxşı bezek[12] vurun, bizim geline geline
Xırda mirvariden düzün teline, teline

Derya bir balıq verdi
Balığı Xaliq verdi.
Sen tikansız balıqsan.
Seni kim soraq verdi.
Yaxşı bezek vurun, bizim geline, geline
Xırda mirvariden düzün teline, teline

1. berber 2. şen 3. geciktirmek 4. götürmeye 5. yüksek 6. özel isim 7.kısa boylular 8. o taraf - bu taraf 9.taç yaprağı 10. bir yiyeceği canı çeken ll.küçükinci 12. süs

Kelağaymı[1] yel atdı,
Sancaq başıma batdı.
Geldi toyuma çatdı.
Yaxşı bezek vurun, bizim geline, geline
Xırda mirvariden düzün teline, teline

Menim yarım bestedir,
Bıldırcın gefestedir.
Yarımı gözleyirem
Üreyim de sesdedir.
Yaxşı bezek vurun, bizim geline, geline
Xırda mirvariden düzün teline, teline

UÇAR GEDER YAR HEYEY

35. Ay araba gelir Ağdaşdan,
Ay yükün vurub qamışdan.
Ay bacı bivefa çıxar,
Ay tez ayrılar qardaşdan.

Ağdaşdan gel, Ağdaşdan
Gence sürdüşdü[2] başdan.
Bacının qaydasıdır Tez
ayrılar qardaşdan.

Bedelen[3] bende deyer
Könül kemende deyer.
Qardaş bir qız sevibdir
Bütün bu kende deyer.
Uçar geder
yar-yar,
Keçen geder
yar-yar,
Ay bu evin eziz qızı
İndi köçer
yar-yar.

XALÇA4 VERERLER GELİNE

36r Ağdır bileyin ay gelin,
Geniş üreyin ay gelin.
Biz gelmişik aparmağa[5]
Hanı dileyin, ay gelin?

Xalça vererler geline
Dolça[6] vererler geline.
Bizim yerin adetidir
Xalça vererler geline.

İstil[7] üste at geder,
At geder polad geder.
Yaxşı qızın cehizi,
Beylere xelet[8] geder.

BACIM GEDİR CİLOVDARP KİM OLSUN!

37. Evimizin yanma nece gelibsen,
Gündüzü qoyubsan gece gelibsen.
Heves eyleyibsen, bece gelibsen.
Xara tuman[10] qıraqları sim olsun,
Bacım gedir, cilovdarı kim olsun?

Balaca baldızı vermişem ere,
Boynuna düzmüşem narinci- xara,
Men sene ne dedim, ay üzüqara.
Xara tuman qıraqları sim olsun,
Bacım gedir, cilovdarı kim olsun?

Gedin deyin menim ağa dayıma,
Seyre gelsin çemenime, çayıma.
Yığsın aşıkları gelsin toyuma,
Xara tuman gıraxları sim olsun,
Bacım getir, cilovdarı kim olsun?

ELİNDEN AYRILIB ÇOX ZAMAN AĞLAR

38. Emimin balası gel evimize,
Sama var qoymuşam çay verim size,
Vedini almışam, qonaq ol bize,
Bizim gelin yaxşı binare bağlar,
Elinden ayrılıb çox zaman ağlar.

Emimin heyeti incir ağacı, İnciri
yemerem danesi acı,
Sene ne demişem ay Ağabacı?
Bizim gelin yaxşı binare bağlar,
Elinden ayrılıb çox zaman ağlar.

Emime değinen bir beri dursun,
Arası bizimle serin olmasın,
Heç kafir emiye gelin olmasın.
Bizim gelin yaxşı binare bağlar,
Elinden ayrılıb çox zaman ağlar.

Dukanda eyleşib - çay qabağmda,
Çubuq tüstülenir gül damağında.
Geyinip gezeydim yar qabağma...
Bizim gelin yaxşı binare bağlar,
Elinden ayrılıb çox zaman ağlar.

İNDİ GEDER QONAQLARIN, AY BACI

39. Ay gederem, oturmaram,
Ay te'ne söz götürmerem.
Ay yarın şirin sözünü
Ay heç kese ötürmerem[11].
Ne tökmüsen qaşqabağm[12], ay bacı,
İndi geder qonaqlarm, ay bacı.

Bacılar bacısıyam
Şirinin acısıyam.
Kim mehriban bacıdır?
Men onun bacısıyam
Ne tökmüsen qaşqabağm, ay bacı,
İndi geder qonaqlarm, ay bacı.

Bu bağlar güllü bağlar
Güllü-bülbüllü bağlar
Bacmm smıq[13] könlün
Bağlasa bacı bağlar.
Ne tökmüsen qaşqabağm, ay bacı,
İndi geder qonaqların, ay bacı.

1. bir tür başörtüsü 2. kaydı, yerinden oynadı 3. bedelen 4. halı 5. götürmeye 6. bakraç 7. çelik sulamada kullanılan su ambarı 8. armağan 9. atın başım çeken 10. ipek pantolon 11. duyurmam 12. surat asmak 13. kırık

## MEN GEDERGİ BİR QONAĞAM, GEL İNDİ

40. Ay menim anam qalaydı, ay nene,
Ay dörd, yanımı alaydı, gel indi,
Ay men derdimi deyende, ay nene,
Ay anam abdal olaydı, gel indi.
Ne tökersen qaşqabağın, ay nene!
Men gedergi bir qonağam, gel indi.

Qız geder gelin olar, ay nene,
Yel deyer serin olar, gel indi.
Qızın düşen yerleri, ay nene,
Boy vermez derin olar, gel indi.
Ne tökersen qaşqabağın, ay nene!
Men gedergi bir qonağam, gel indi.

Ucadır boyun senin,
Ne xoşdur toyun senin,
Xeyir-duana gelib
Nenenle dayın senin.
Ne tökersen qaşqabağın, ay nene!
Men gedergi bir qonağam, gel indi.

## GEDER GÖZLERİN QARASI AĞLAMA

41. Çorabın nişan-nişan
Halın niye perişan?
Qardaşm adaxlısı
Çok bilen, az danışan.

**Birlikde:**

Ağlama ceyran balası, ağlama
Geder gözlerin qarası, ağlama
**(3 defe)**

Sen menim Fatma nenem,
Qaş-gözün atma, nenem.
İsteye isteye ver,
Günaha batma, nenem.
Ağlama ceyran balası, ağlama
Geder gözlerin qarası, ağlama

Köynek tikdim yaxasız,
Demedim ki, satasız
Feleyin boynu sınsın,
Qoydu meni atasız.
Ağlama ceyran balası, ağlama
Geder gözlerin qarası, ağlama

Çaya girdim daşı yox
İlan gördüm başı yox.
Düşmüşem qerib yere
Yanımda qardaşım yox.
Ağlama ceyran balası, ağlama
Geder gözlerin qarası, ağlama

Bağa girdim tas ile,
Yar sevdim heves ile.
İsteyine gedenin
Keçmez günü yas ile.
Ağlama ceyran balası, ağlama
Geder gözlerin qarası, ağlama

## BACILARIN AĞLAR, AY BACI

42. Qalanm dibinde hil-mixek[1] ekdim,
Hesedim-hövsedim cibime tökdüm.
Balaca baldızın üzünden öpdüm.
Alçalı dağlar, ay bacı yara gedirsen?
Bacılar ağlar, ay bacı, hara gedirsen?

Qalanm dibinde bişirdim aşı,
Çağırdım Allah'ı, tökdüm göz yaşı.
Allah'dan iseterem bir cüt qardaşı.
Alçalı dağlar, ay bacı yara gedirsen?
Bacılar ağlar, ay bacı, hara gedirsen?

Qalanm dibinde alaq ederem[2]
Gedene gelene soraq ederem[3]
Balaca baldızı qonaq ederem.
Alçalı dağlar, ay bacı yara gedirsen?
Bacılar ağlar, ay bacı, hara gedirsen?

## ŞALI, ŞALI

43. Gedene ağlaram,
Şalı, şalı, şalı.
Gelende güllem,
Şalı, şalı, şalı.
Yar, senin qedrini
Şalı, şalı, şalı.
Men indi billem
Şalı, şalı, şalı.
Uç gün de görmesem,
Şalı, şalı, şalı.
Çerleyib[4] öllem,
Şalı, şalı, şalı.

Şalı, şalı, şalı, yel atdı şalı,
Neye qoydun getdin, alagöz yarı.

Evlerinin yanı hündür[5] mesciddi,
Oğlan arxalığm ne güllü çitdi.
Meğer men ölmüşem, rengin qaçıbdı?
Şalı, şalı, şalı, yel atdı şalı
Canı ölmüş qarı- qoy bizi barı.

Paraxod[6] gelende içi qend[7] olar,
Qayıdıb gedende işi fend olar,
Qayda budur: oğlan qıza bend olar.
Şalı, şalı, şalı, yel atdı şalı
Canı ölmüş qarı, qoy bizi barı.

Şalı, şalı, şalı.
Şalı, şalı, şalı.

1. bir tür ağaç 2. yabani ot ayıklamak 3. soruşturma 4. zayıflamak, erimek 5. yüksek 6. buharlı gemi 7. şeker

SENİ QAYNINA TAPŞIRIMi

44. Evlerinde men işlerem,
Xencerini gümüşlerem,
Gâh dinceler, gâh dişlerem
Bacım getme, aş bişirim,
Seni qaynma tapşırım.

Köyneyinin gülü yaşıl,
Süsen sünbüle dolaşır.
Gözellik sene yaraşır.
Bacım getme, aş bişirim
Seni xaynına tapşırım.

O GÜLLÜ YERDEN SU GELİR

45. Ay evleri yanımızda.
Ay derdi çox canımızda.
Ay desmal getir, gül apar,
Qoy qalsm yanımızda.

Birlikde:
O güllü yerden su gelir
Onu tutun yar-yar.
(3 defe)

Bizden size gelin gelir,
Eziz tutun yar heey..
(3 defe)

Yolun çaylardan keçdi,
Eyildin suyun içdin.
Belinden qızıl tekbend[2],
Axar sulara düşdü.

Selyandan gemi geldi,
İçinde emim geldi.
Gel bir qol-boyun olaq[3],
Ayrılıq demi geldi.

AYANA

46. Men senin qızın deyilem, ay ana,
Torbada duzun deyilem, ay ana.
Men senin balan deyilem, ay ana,
Gedenem, qalan deyilem, ay ana.
Uçdum ana, yar-yar,
Südünü halaî eyle.
Köçdüm ana, yar-yar,
Daşları aşdım, ay ana.
Xeberin olsun, ay ana...

Qerib yere düşdüm, ay ana,
Nezerin olsun, ay ana...
Uçdum ana, yar-yar,
Südünü halal eyle...
Köçdüm ana, yar-yar,
Anam mene sandıq alsın,
Cehizleri verib saysın.
Çatıbdır ayrılıq demi,
Balasıyam yola salsın.

BOYNUNU NE BURMUSAN QIZIN ANASI

47. Elleri burda yoxdur, oğlan anası,
Köçübdür, burda yoxdur, qızın anası...
Canım nece can versin, oğlan anası,
Can alan burda yoxdur, qızm anası,
Qapıda ne durmusan oğlan anası,
Boynunu ne burmusan qızm anası.
Sebr ele, sana sebri,
Merd gerek qana sebri.
Her bir sebr tükense
Tükenmez ana sebri
Qapıda ne durmusan oğlan anası
Boynunu ne burmusan qızm anası. .
Arxalığı qola sal,
Sağdan götür, sola sal.
Men ki, getmeli oldum,
İndi meni yola sal.
Qapıda ne durmusan oğlan anası,
Boynunu ne burmusan qızm anası.

QIZIN ANASI DALDAN* BAXAR AĞLAR

48. Açıq qoy pencereni
Gözüm görsün geleni.
Gelib oğlan adamı
Yola salın gelini.
Oğlan anası güllü çarğat[5] bağlar,
Qızm anası daldan baxar ağlar.

Sehengi[6] suya gönderdim,
Şer'in suya gönderdim.
Özüm gelebilmedim
Salam-dua gönderdim.
Oğlan anası güllü çarğat bağlar,
Qızın anası daldan baxar ağlar.

Dağ başı qala yeri,
Gez dolan qala yeri.
Yüz candan yanan olsa,
Heç vermez ana yeri!
Oğlan anası güllü çarğat bağlar,
Qızm anası daldan baxar ağlar.
Apardılar gelini,
Bağladılar belini,
Başında ipek leçek[7]
Bezediler telini.
Oğlan anası güllü çarğat bağlar,
Qızm anası daldan baxar ağlar.

YOL AÇIN, GELİN GELİR

49. Ay bu yol yolluğa gedir,
Ay yol açın, gelin gelir.
Ay ucu kolluğa gedir,
Ay qurban olum qardaşa,
Ay toyu bolluğa gedir.
Ay yol açın gelin gelir,

1. ısmarlama 2. kemer, bel bağı 3. sarılalım 4. arkadan 5. büyük başörtüsü 6. topraktan yapılmış büyük su kabı, küp
7. bir çeşit başörtüsü, yazma

Ay sahi dilberim gelir.
Cehizi on beş tümen,
Bu elin qeşenq[1] qızı,
Alagöz gelin gelir.

İstekanın[2] ağ olsun,
İçi dolu yağ olsun.
Özgesini neynirsen?
Elin oğlu sağ olsun.

Cibimdeki panabad,
Keç yollan salamat.
Qedemin eziz olsun,
Gedişin xoş elamet.

AY TOY YİYESİ3, TOYUN MÜBAREK OLSUN.

50. Burdan getdim ellerine,
Xma yaxdım tellerine.
Men qurbanam dillerine.
Ay qız veren evin abadan[4] olsun!
Özünde bey, toyun mübarek olsun!

Burdan getdim Hemedana,
İncir yedim dene-dene,
Sizi qoydum yana-y ana.
Ay qız veren evin abadan olsun!
Özünde bey, toyun mübarek olsun!

Gelin gedek, xanlar, bize
Düymeleri düze-düze,
Men gelmirem, sen gel bize.
Ay qız veren evin abadan olsun!
Özünde bey, toyun mübarek olsun!

OJJRTARDI İNTİZARDAN, AY LALE

51. İrevanm ağca quşu
Geder yayı, geler qışı.
Yaxşı olar yar görüşü.
Gelin çıxdı hasardan, ay lale,
Qurtardı intizardan, ay lale.

Lenkeranm xanı üçün,
Şerefde soltanı üçün, ikimizin
canı üçün. Gelin çıxdı
hasardan, ay lale, Qurtardı
intizardan, ay lale.

I»enkeranda xan qalmadı,
Şerefde soltan qalmadı.
Daha bizde can qalmad0ı,
Gelin çıxdı hasardan, ay lale,
Qurtardı intizardan, ay lale.

GELİNİN TE'RIFI

52. Sözüm sözün qurbanı,
Yaxşı boyun qurbanı.
Sen yeri bir men baxım,
Olum boyun qurbanı.
Balaca ceyran gelin,
Boyuna heyran gelin.

Uçdum havada, uçdum,
Qanadım sındı[5] düşdüm.
Ağır elin qızıyam
Qerib yere men düşdüm.
Balaca ceyran gelin,
Boyuna heyran gelin.

Zer başmağım sürüşdü[6],
Cennet bağına düşdü,
Eyildim götürmeye
Qardaş yadıma düşdü.
Balaca ceyran gelin,
Boyuna heyran gelin.

BİZ APARDIQ HURİ-PERİ, YAR-YAR

53. Ldesde:
Ay istekanın sarısı, yar-yar,

II. deste:
Ay içdim qaldı yarısı, yar-heeey...

I. desde:
Ay arvadların eri var, yar-yar,

II. deste:
Ay qızların adaxlısı[7], yar-heeey.,

Birlikde:
Biz apardıq huri-peri, yar-yar,
Size qaldı derdi seri, yar-heeey...

Sabah, bir gün yaz geler,
Ördek geder, qaz geler.
Torçular torun qurar,
Bele terlan[8] az geler.

El çalmayanın eli qurusun,
Suya gedende beli qurusun.
Biz apardıq huri-peri,
Size qaldı derdi-seri.

1. güzel 2. bardak 3. düğün sahibi 4. şen 5. kırıldı 6. kaydı 7. nişanlısı 8. yırtıcı bir kuş

Kendilerinden qız almışıq,
Onlar verib tez almışıq.
Oğlanları efel[1] çıxıb,
Qızlarını biz almışıq.

DAĞLAR ARASINDAN GELİR

54. Dağdan gelin gelesen,
Duvağı yelledesen.
Xanım-xatm olasan,
Bizim doğma ele[1] sen.
Hey, dağ arasında gelir,
Dağlar arasında gelir.

Ay bu dağı aşaram men,
Güle bulaşaram men
Vefalı yardan ötrü
Erzi dolaşaram men.
Hey, dağ arasından gelir.
Dağlar arasından gelir.

Bu gelen bize geler,
Hündürden[3] düze geler.
Allah sen özün saxla,
Cavandır göze geler.
Hey, dağ arasından gelir,
Dağlar arasından gelir.

PAMBIO.DAN AĞDI QOLLARIN AY GELİN

55. Evlerinin yanı menim olaydı,
Arxalığm büzme darı olaydı,
Bu gelen gemide yarım olaydı.
Su geldi bürüdü yollan, ay gelin,
Pambıqdan ağdı qolların, ay gelin!

Sen gelende sene neler demişdim,
Sen gelence üreyimi yemişdim,
Üç bacımı sene qurban demişdim.
Su geldi bürüdü yolları, ay gelin,
Pambıqdan ağdı qollarm, ay gelin!

Evlerinin yanı şamama[4], püste[5],
Başmağı geyerem dabanım üste,
Men yarımı isterem gözlerim üstde.
Su geldi bürüdü yolları, ay gelin,
Pambıqdan ağdı qollarm, ay gelin!

ARAZ-ARAZ XAN PAYINA

56. İrliyine[6], birliyine
Gelin qızm dirliyine,
Araz-Araz xan payına,
Bey oğlanın sağlığına,
Hure-Huree!
İl yerine, dur yerine,
Etir sepin dirliyine.
Araz-Araz xan payına,
Bey oğlanın sağlığına,
Hure-Huree!

O bağına, bu bağına,
Bey oğlanın sağlığına,
Hay, haray, haray!
Hure-Huree!

Araz-Araz xan payına,
Bey oğlanın sağlığına,
Gelin qızm sağlığına,
Hüre, hüre, hureü!

YALVARIB, ALDADIB BAĞA SALMISAN

57. Evlerinin yanı sünbül tayası,
Sağarlar camışı, oynar balası.
Bir qız sevmişem ceyran balası.
Qardaş, bu ceyranı nardan almısan,
Yalvarıb aldadıb bağa salmısan!

Lenkeran yolları varaq-varaqdır[7],
Küçeler hamisi şüşe daraqdır.[8]
Bir gözel sevmişem menden iraqdır.
Qardaş, bu ceyranı hardan almısan,
Yalvarıb aldadıb bağa salmısan!

Sonadan- sonaya soraq eylerem,
Yar alan yaylığı duvağ eylerem,
Yar özü gelmese qonaq eylerem.
Qardaş, bu ceyranı hardan almısan,
Yalvarıb aldadıb bağa salmısan!

Bir sırmayı xencer almışam,
Yarım kemerine özüm salmışam.
Yarım ova gedib yakjız qalmışam.
Qardaş, bu ceyranı hardan almısan,
Yalvarıb aldadıb bağa salmısan!

HEY YARA XOŞ GELDİN DEYİN!

58. Gelirsen hay neynim sene,
Hay, düşübdür meylim sene,
Ay, meylim meyline qurban,
Hay daha men neynim sene,
Hey, yara xoş geldin deyin.

**Birlikde:**
Dildara xoş geldin- deyin,
İntizarın çekmişem,
Geline xoş geldin deyin.

Ay deryadan keçdim geldim,
Ay suyundan içdim geldim.
Ay igidlerin içinden
Ay men seni seçdim geldim.

1.1. tembel, mıymıntı 2. anavatan 3. yüksekten 4. bir tür kavun 5. fıstık 6. iriliğine 7. yaprak yapraktır. 8. camdan taraktır

Ay gelin, gözüm gelin,
İşlerem özüm gelin.
Sevinsin qaynanası
Göyçekdir bizim gelin.

GELİN XOŞ GELDİN GELİN

59. Ay dosdun vefasın gördüm,
Ay seçib könlümü verdim.
Gelin, xoş geldin, gelin.
Tezelendi köhne[1] derdim.
Derdime çere xoş geldin,
Gelin, xoş geldin, gelin.

.Evlerine yaxm keçdim,
Eyildim suların içdim
Men bu yere qerib düşdüm,
Gelin xoş geldin, gelin.

Evlerinin yanı yonca,
Gülü olub pence-pence
Talış qızı olur ince,
Gelin, xoş geldin, gelin.

XOŞ GELDİN XANIM XOŞ GELDİN

60. Gelin deyer. "Hanı anam?
Su üzünde qaldı sonam".
Tutu xanım senin anan.
Xoş geldin gül üste xanım,
Xoş geldin, xanım, xoş geldin.

Gelin deyer: "Hanı atam?
Qoyunu quzuya qatam".
Qaynatandır senin atan.
Gelin deyer: "Hanı qardaş?"
Axıdar gözlerinden yaş
Qayımndır sene qardaş.

Gelin deyer: "Hanı bacım?
Su üzünde qaldı saçım".
Baldızmdı senin bacın.
Gelin deyer: "
Hanı xalam?"
Yaxılmamış qaldı xmam.

Evindir derdine qalan,
Gelin, xoş geldin, xoş geldin
Bizim bu eve xoş geldin,
Xoş geldin, gül üste xamm,
Xoş geldin, xanım xoş geldin.

QAYINLARI ÇEKSİN QOŞA

61 Sen menim ağam qaynım,
Sallan gel bağa, qaynım.
Gülüm alma çiçeyi,
Sene sadağa, qaynım.
Gelin geldi, xalı döşe,
Qaymları çıxsın qoşa.

Gelinsen, dut yaşmağını,
Tergit çoşub-daşmağmı.
Elimizin adetidir,
Qoy qaynının başmağını.

Gelin geldi, xalı döşe,
Qayınları çıxsm qoşa.
Gelin gelir, cem gelir,
Ev-eşiye tem gelir.

Qaynanaya, baldıza
Qayma hemdem gelir.
Gelin geldi, xalı döşe,
Qayınları çıxsm qoşa.

Baxm, men görendi mi?
Zülfün men hörendi mi?
Aç üzünün perdesin,
Görüm men görendi mi?

Sen menim hilli[3] yarım,
Desmalı güllü yarım.
Eyleşib kecavede[4]
Eceb şekilli[5] yarım.

LEBLERİ QAYMAQ GELİNİN

62. Ay üzünü örtme gelin,
Ay gözünü örtme gelin.
Ay o gözel camalını,
Ay bizden gizletme gelin.
Ay lebi qaymaq gelin,
Lebleri qaymaq gelin.

Ay gelin-gelin olaydı,
Ay al-yaşıla qonaydı.
Ay isteyine çataydı,
Ay qelbi sakit[6] olaydı.
Ay lebi qaymaq gelinin,
Lebleri qaymaq gelinin.

AY BOYU BESTE GELİNİN

63. Bu meyve kollanıbdır,
Ay armudu bollanıbdır.
Ay gedin deyin yarıma,
Ay tekbendi[7] sallanıbdır.

Ay boyu best[8] gelinin,
Saçları deste gelinin,
Veziri samlar yanar
Çiyni[9] üste gelinin.

Baxm, men görendi mi?
Zülfün men hörendi mi?
Aç üzünün perdesi,
Görüm men görendi mi?

1. eski 2. bütünlük, tamlık 3. hil tohumuna mahsus kokulu 4. deve üzerine kurulan üstü örtülü binecek 5. hayret verecek kadar güzel yüzlü 6. huzurlu, sakin 7.tekbendi 8. kısa boylu 9. sırtı

:

Sen menim hilli yarım,
Desmah güllü yarım.
Eyleşib kecavede
Eceb şekilli yarım.

BU TOY KİMİN TOYUDU

64. Bu toy kimin toyudu,
Toyuna qurban olum.
Bu toyda oynıyanın
Boyuna qurban olum...

Qızıl iynenin sapı,
Görürük bizim qapı.
Sevgilime göz tiken,
Dilensin qapı-qapı.

Qardaşımm atı var,
Gjolunda saati var.
Qardaş hayana getse,
O yerde hörmeti var.

TOYUN MÜBAREK OLSUN

65. Qardaşm küren[1] atı,
Meydana giren atı.
Heç kes oynada bilmez,
Qardaşım süren atı.

Deyin mübarek olsun,
Çağırın oğlan bacısın,
Desin mübarek olsun.

Ulduz gelin, ay gelin,
Olamaz sene tay gelin.
Bu gün senin toyundu,
Nazik yuxa yay gelin.

Bu gelen beş atlıdı.
Beşi keher atlıdı.
Qardaşımı tanıyıram
Qabaqda boz atlıdı.

USTUNE ETİR SEPİLER, AY BACI

66. Balaca[2] nar ağacı,
Narın ne göyçekdir.
Qardaş, yarım gördüm
Yarm ne göyçekdir.
Leme[3] çıxma, lem titrer, ay bacı,
Üstüne etir sepiler, ay bacı

Süpür evin yanmı,
Oğlan görsün yarını
Oğlan yarı görende
Versin şirin canını
Leme çıxma lem titrer ay bacı
Üstüne etir sepiler ay bacı.

Deste deste bağlaram,
Gülü deste bağlaram.
Birini qardaş üçün,
Birini dosta bağlaram.
Leme çıxma, lem titrer, ay bacı,
Üstüne etir sepiler, ay bacı.

Ağ almanın acısı
Yaylığın qıyqacısı[4],
Dursun başına dönsün
Sevgilinin bacısı.
Leme çucma, lem titrer, ay bacı,
Üstüne etir sepiler, ay bacı.

Göyden uçan göyerçin
Gör ne deyirem sene.
Eziz qonağım bacı,
Hörmet ederik sene.
Leme çıxma, lem titrer, ay bacı,
Üstüne etir sepiler, ay bacı.

HER GÜNÜMÜN NÖVRAGF VAR

67. Men âşiqem al menden,
Yaşıl senden, al menden.
Ya eşqime şerik ol,
Ya bu canı al menden.
Her âşiqm dövranı var,
Her günümün növrağı var.

Nal âşıq, bir gün düşer,
Yağış yağar, ün düşer.
Serde öten[6] günlerim
Yadıma her gün düşer.
Her âşiqın dövranı var,
Her günümün növrağı var.

Ezizim hara baxdım?
Eyildim yara baxdım.
Bir gözel yar almışam,
Açılıb qara baxdım.
Her âşiqm öz dövranı var,
Her günümün növrağı var.

GEDER BU DÖVRAN...

68. Çal âşiq, çıraq yanar,
Getdikçe uzaq yanar.
Sevgi ele şerbetdir,
İçdikce dodoq yanar.
Çal bele qurbanın olum, çal bele,
Geder bu dövran, daha gelmez ele.

Ay âşiq, şirin-şirin,
Nar yedim şirin-şirin,
Yarım eve gelende
Danışım şirin-şirin.
Çal bele qurbanm olum, çal bele,
Geder bu dövran, daha gelmez ele.

Ldoru ZJküçücük 3. taf 4. başörtüsünün 5, parlaklık, güzellik 6. geçen

Ay âşiq dalda yeri,
Meh vurar, dalda yeri.
İki könül bir olsa,
Tez tapar[1] dalda yeri.
Çal bele qurbanın olum, çal bele,
Geder bu dövran, daha gelmez ele.

AY GÜLÜ XAŞXAŞDI GELİN

69. Ay menim yarım Nureli,
Ağ dağda salar xermeni,
Ay arpasın atla yeyer,
Ay buğdası can dermanı,

Ay gülü xaşxaşdı gelin,
Esli qızılbaşdı gelin.
Evlisen, ev halı bil,
Ev sene peşkeşdi gelin.

Gedirem, yolum daşdır,
Görüken qızılbaşdır.
Menim yarım gözeldir.
Ucaboy, qaraqaşdır.

ÖYREN GELİN, OYREN GELİN

70. Ay, bu gün ayın üçüdür,
Öyren gelin, öyren eee...
Ay girme bostan içidir,
Ay dodaqlarm qend-şeker,
Ay dilin badam içidir,
Eylen gelin, eylen gelin!
Dilim Azerbaycan dili,
Öyren gelin, öyren gelin!

Ay gelin, bizim bu dili,
Ay quşlar oxur bu dili,
Ay yarımı sevdiyimden;
Ay öyrenmişem bu dili.

Ay gelin, diller ayrıdır,
Ay gelin, evler ayrıdır,
Ay gelin, debler[2] ayrıdır,
Öyren gelin, öyren gelin!
Bizim dil, Azerbaycan dili
Öyren gelin, öyren eee...

EVVELKİ DİLLERİ QOY YERE GELİN

71. Şandıq üstün bezerem,
Üstüne gül düzerem,
Ağır elin qızıyam,
Çerib yerde gezerem.
İstekan^ nelbekiye[4] qoy gelin,
Evvelki dilleri yere qoy gelin,

Şamavarı qırmızı,
Üstünden sildim tozu.
Zaru-zaru ağlama,
Mustafaxanm qızı.
İstekanı nelbekiye qoy gelin,
Evvelki dilleri yere qoy gelin.

Samavarm bendiyem,
Acı çayın qendiyem,
Menim burda kimim var,
Şirin dilin bendiyem.
İstekanı nelbekiye qoy gelin,
Evvelki dilleri yere qoy gelin.

GÜL ÜSTE XANIM

72. Bazarda qutu, gül üste xanım,
İçinde tutuS, gül üste xanım
Bay oğlan loru[6], gül üste xanım,
Xoş geldin gelin, xoş geldin.

Bazarda hesir[7], gül üste xanım,
Göyde yel esir, gül üste xamm,
Oğlan telesir[8], gül üste xanım.

Bazarda nana,
Eser tiyana[5].
Seni görenler,
Olar divana.

Çalın, çağırın,
Tuğyana gelin.
Dursun oynasın,
İstekli gelin.

Çalın, çağırın,
Vurun diringe[10].
Dursun oynasın.
Bezekli yenge.

73. Bele balanı,
Âşiq balanı,
Car olsun,[11]
Sağ olsun.
Var olsun!
Yar bize
Qonaq olsun.

**LDeste:**
Bele balanı, bazarda qoyun

**II.Deste:**
Bele balanı, geyme lalanı.

**LDeste:**
Bele balanı, derisin soyun,

**II.Deste:**
Geyme lalanı.

1. bulur 2. moda, alışkanlık 3. bardak 4. fmcan tabağı 5. tutu kuşu, tûti 6. serseri 7. hasır 8. acele eder, sabırsızlanır 9. içinde maden eritilen büyük kazan 10. hafif ve ritmik musiki parçaları 11. yansın

**I.Deste:**
Haçandır[1] toyun?

**II.Deste:**
Bele balanı, âşiq balanı.

**I.Deste:**
Car olsun
Sağ olsun!
Var olsun!

-
Yar bize Qonaq olsun!
Ay geden oğlan, Bir
ayaq saxla. Ümidim
sensen, Penahım Allah.

Bazarda fincan,
Fincanı mercan.
Bir kağız yazarşan,
Ollam xatircem[2].

Bele balanın
Bağçalar barı
Heyvası, narı,
Adaxlısı hanı?

Anam mene barı[3],
Atam mene barı,
Kimin ne heddi var,
Baxsm mene sarı[4].

ALMANI ALMA GELİN

74. Almanı alma, gelin,
Al, yere salma, gelin.
Evinde çox söz olar
Üreyine salma, gelin.

Ay âşiq alma meni,
Al, yere salma meni.
Apar serraf yanma
Qelp[5] olsam alma meni.

Oturmuşam başda men,
Yemerem her aşdan men.
Ne atam var, ne anam,
Yaranmışam daşdan men!

OTURUN CIZLAR OTURUN EEE

75. Ay o taya düşen evler,
Ay üste gün düşen evler.
Ay ölsün düşmen balası,
Ay bize gülüşen evler
Evden xeber getirin eeey...
Eskinazı götürüne
Beli çeper düymeli
Âşıqları getirin eee...
Oturun qızlar, oturun,
Elden xeber getirin e..
Seyrü-sefa xeberi
Gedin yara yetirin e .
Eskinazı sayarlar,
Pul[6] qabına qoyarlar
Yar-yarı istese
Ondan nece doyarlar.

GÖR NE ALADIR GELİNİN GÖZLERİ

76. Ay bu köyneyim iki yaxa,
Ay sen aşna, men xonaxa.
Ay bir baş qoyum dizin üste.
Ay can verim baxa-baxa.
Gör ne aladır, gelinin gözleri.
Vallah beladır, gelinin, gelinin gözleri
Ay, ne şirindir bu beyin sözleri.

Ezizim gözlerine,
Müştağam gözlerine,
Deyin soluq baxmasm,
Yar-yarın gözlerine.

Ay âşıq, üzüm deydi,
Üzüne üzüm deydi.
Uzaqdan el eledim,
Gözlere gözüm deydi.

ALCA GÜL AÇDI GELİN

77. Gelin, saların gelin,
Geyib xeletin[7] gelin.
Çatıb oğlan evine, Alıb
muradın gelin.

Ay dönüb ulduz olsun,
Sular dönüb buz olsun.
Gelin, geldiyin evde
Oğul olsun, qız olsun.

Alca gül açdı, gelin,
Saçın dolaşdı gelin.
Ay bu boya,buxuna
Duvaq yaraşdı gelin.

MİRZEMXAN OTAĞINDA

78. Ay qardaş girib otağa[8],
Ay qırmızı boyatmağa.

Ay qız yatıb yuxudadı,
Ay qıymaram oyatmağa.
Ağam xan otağında
Mirzem xan otağında.

2^rahat,emin 3, duvar 4. yana,-tarafa 5.-sahte 6. para 7. armağan Sr-eda

Ağam xan otağında,
Mirzem xan otağında.
On iki şam[1] yandırram,
Qardaş xan otağında.
Ağam xan otağında.
Mirzem xan otağında.

Lenkeranm gülleri,
Oxuyur bülbülleri.
Qardaşa qurban olsun
Qoşaca bibileri.
Mirzem xan otağında,
Ağam xan otağında.

Mixek[2] ekdim leyende,
Mixek boyun eyende.
On iki şam yandırram
Elim yara deyende.
Ağam xan otağmda,
Mirzem xan otağında.

ADAXLIN GÜLSİN ÂŞIQ OLSUN SENE

79. Lamba, seni yandırram,
Dörd yanı dolandırram.
Müşkül işim düşende,
Vurram seni sındırram.
Lampam yandır, işıq olsun sene
Adaxlın gelsin âşiq olsun sene!

İşığı yanar qoydum,
Üstüne fenar qoydum.
Bir alagöz oğlanın
Üreyin yanar qoydum.
Lampam yandır, işıq olsun sene,
Adaxlm gelsin âşiq olsun sene!

Başımda sarı sancaq,
Sancaq olub oyuncaq.
Menim ne günahım var,

DUR EYVANI GEZ XANIM

80. Bu dere derin dere,
Suları serin dere.
İsterem bağca salım,
Yar gelib gülün dere.
Nanay-nanay, Nazxamm,
Dur eyvanı gez xanım!

Növbaharam, gezerem,
Bağlara gül düzerem,
Yar yanıma gelende
Sevincimden süzerem.
Nanay-nanay, Nazxanım,
Dur eyvanı gez xanım.

Nanay-nanay. nazxanım,
Dur eyvanı gez xanım,
Eziz qonağm gelir,
Püste xanım, Nazxanım.
Nanay-nanay, Nazxanım,
Dur eyvanı gez xanım.

ÜZÜN AĞ OLSUN, AY GELİN

81. Ayranın üzlü olsun,
Duz tökün duzlu olsun.
Gelin qoşa qarısın[3],
Oğullu, qızlı olsun.

Üzün ağ olsun, ay gelin,
Yengen sağ olsun, ay gelin.
Sene süd veren ana,
Serfinaz olsun, ay gelin.

Elensin, ay elekler,
Çirmensin[4] ağ bilekler.
Dostlara xeber getsin,
Hasil oldu dilekler.

QIZ GELİN

82. Anam-bacım qız gelin
El-ayağı düz gelin
Yeddi oğul isterem
Birce dene qız gelin
Qız imiş, qız gelin
Birce dene qız gelin...
Yar-yar, qız gelin,
Nar-nar, qız gelin...

## Halay Mahınları

83. Halay başlardan biri:
Çekin, halay düzülsün
Xumar gözler süzülsün,
Kim halaya girmese
Eli yardan üzülsün.

**I. Deste:**
Ay lo-lo-lo-lo-lo,
**II. Deste:**
Yar lay-la
**I. Deste:**
Mektub yazıb yolladım,
**II. Deste:**
Ay lo-lo-lo-lo-lo,
ya leey-le

1.mum 2. karanfil 3. kocasm> yaşlansın 4. çemensin

Suya saldım yolladım.
Ya ley-le
Ay özüm gede bilmedim,
Ay salam-dua yolladım.

Ay deste çubuq dererler,
Ay yarpaq üsde sererler ,
Ay xoş o qızın halına,
Ay isteyine vererler.

Ay mektub yazdrm qarasız,
Ay derde düşdüm çarasız.
Ay quşlar, menim dilimden,
Ay yarıma yal var asız.

Ay gül baxçadan yolum, var.
Anan qoymur gelim, yar.
Deme ki, bivefasan,
Sene qurban olum, yar.

YAR ELİ, YAR DÜYMELERİ MERCAN

84. I. **Deste:**
Ha le-li, balaca püste[1] menim,
II. **Deste:**
Ya le-li, yar düymeleri mencan.
**I. Deste:**
Ya le-li, püsteni istemerem,
II. **Deste:**
Ya le-li, yar düymeleri mercan.
**I. Deste:**
Ya le-li, her igid oğlan üçün
**II. Deste:**
, Ya le-li, yar düymeleri mercan.
I. **Deste:**
Ya le-li, özümü beslemirem,
**II. Deste:**
Ya le-li, yar düymeleri mercan.

İnciden üzülmüşem, yar hey,
Mercana düzülmüşem, yar hey,
Ala papaq, kül oğlan, yar hey,
Alnına yazılmışam, yar hey.

Narınca bax, narınca
Saxladım saralmca
Mende ürek qalmadı
Senden bir söz alınca.

Tenek[2] üstünde qara
Yar geldi sabam qıra
Dedim, gülüb oynayam
Bilmedim, düşdüm tora.

HALAYI DONDER BERİ

85. I. Deste:

Ha le-li, yeri-yeri gelirem.

**II. Deste:**
Ha le-li, halayı dönder beri.
Ha le-li, qolları düymelerem.
Ha le-le, aç qolları men girim
Ha le-li, uzaq yerden gelirem.

Yeri-yeri düşen yar,
Yeni eşqe düşen yar,
Elçileri küsdürüb
Özü elçi düşen yar.

İyne sancdım[3] divara,
Elçi yolladım yara.
Elçiye macal[4] olmaz,
Özüm elçiyem yara.

MELEK, MELEK, MELEK HA...

86. I. **Deste:**
Burdan getdim obasına.
II. **Deste:**
Melek, melek, melek hay...
Sağı[5] melek, melek hay...
**I. Deste:**
Salam verdim babasına.
II. **Deste:**
Aman, melek, melek hay,
Sağı melek, melek hay...
Kiçik qızm hevesine
Sen de çıx bostana melek.
Melek, melek, melek hay,
Sağı melek, melek hay.

Bir evi var, bir eyvanı
Uçubdur eyvanın yanı...
Evvelki ve'deler hanı?
Melek, melek, melek hey,
Sağı melek, melek, melek hey

GOZEL MELEK, SÖYLE KİMİN YARIŞAN?

87. Evlerine getdim, yedim badımcan,
Ellerim xmalı, qollarım mercan. Bir
kağız yazaram olar xatircam.
Gözel melek, söyle kimin yarışan,
Kimin bağçasısan, kimin bağısan?

Yol ile gedirdim, yar gördü meni,
Saldı dirişkeni, mindirdi meni.
Görse emim oğlu öldürer meni.
Gözel melek söyle kimin yarışan,
Kimin bağçasısan, kimin bağısan?

İki gemi gelir Fireng elinden,
Yar sovqat[6] getirir Fireng gülünden.
Sifariş getirir yarın dilinden.
Gözel meler söyle kimin yarışan,
Kimin bağçasısan, kimin bağısan?

1. fıstık 2. bağ kütüğü 3. sapladım 4. imkan, fırsat 5. saki 6. armağan

İki gemi gelir, atıla düşe,
Birinde lampadır, birinde şüşe,
Men nece danışım yar başa düşe,
Gözel melek, söyle kimin yarışan,
Kimin bağçasısan, kimin bağı san?

DAD ELİNDEN, YAR ELİNDEN

Evlerinin yanın keçdim,
Eyildim suların içdim.
Men bu yere qerib düşdüm,
Dad elinden, yar elinden,
Ara vuranlar dilinden.

Elime qaval almışam,
Mehrimi yara salmışam
Yarım gedib tek galmışam
Dad elinden, yar elinden,
Ara vuranlar dilinden.

SARALDIYARPAQLARI

89. Çeper çekili qaldı,
Bostan ekili[1] qaldı.
Sevdin alabilmedin,
Başın serkili qaldı.
Basma, basma tağları[2]
Saraldı yarpaqları.

Bostanda tağım ağlar,
Tağda yarpağım ağlar.
Sensiz öten her günüm,
Her xoşbext[3] çağım ağlar.
Basma, basma tağları,
Saraldı yarpaqları.

Sarı qovun bişibdi,
Bişib yere düşübdü,
Çox da gözel deyilsen,
Gözüm sene düşübdü.
Basma, basma tağları,
Saraldı yarpaqları.

HESİRİ BASMA DOLAN GEL

90. Yeri-yeri işine,
Men baxım yerişine
İpek olum dolanım
Kemerin gümüşüne
Ay benizi solan gel,
Hesiri basma, dolan gel.

Eyvan dolu işıqdır,
Pencerem sarmaşıqdır,
Elde ne çox gözeller,
Könül sene âşıqdır.
Ay benizi solan gel,
Hesiri basma, dolan gel.

AL OJRMIZINIMTENİ

91. Yeri-yeri mestana,
Quşlar dolur bostana.
Qorxuram yağış yağa,
Abı[4] donum islana.

Bir don aldım miyane[5],
Al yaşıla boyana.
Men qalmışam bu tayda,
Yar gedibdir o yana.

Abıdan abı gerek,
Yar yarın babı[6] gerek.
Göyçekliyi, camalı,
Ağlı, kamalı gerek.

A QIZLAR, GOZEL SİZDEDİR.

92. Üzüyün qaşı gözel,
Yaqutdur daşı, gözel.
Destenizin içinde
Bir halaybaşı gözel.

Qızlar, gözel sizdedir,
Sizde deyil, bizdedir.

Araxçının zeri var,
Burası[7] var, zeri var,
Xumar baxan gözlerin
Ulduza benzeri var.
Qızlar, gözel sizdedir,
Sizde deyil bizdedir.

Bu ellerin qızıyam,
Ayıyam, ulduzuyam,
Bütün âlem bilir ki,
Gözeller ulduzuyam.
Çhzlar, gözel sizdedir,
Sizde deyil bizdedir.

Bizde olan gözeller
Bağ-baxçanı bezeller.
Toy-düyünde, nişanda
Tovuz kimi süzeller.
Çhzlar, gözel bizdedir,
Sizde deyil, bizdedir.

1. alay konusu olma 2. kavun, karpuz gibi bitkilerin yerde uzanan sapları 3. mutlu 4. mayi 5, orta halli *d.*_ dengi
*7.* içinde altın, gümüş eritilen kab

### CANI-CANE, HEY CANE

93. Tut ağacı buruldu,
Dibinde su duruldu,
Yarım eve gec geldi,
Menim boynum buruldu.
Cam-cane, hey cane.

Gece-gündüz ağladım.
Üreyimi dağladım.
Dünen gece gelmedin,
Balışı[1] qucaqladım.
Canı-cane, hey cane.

### YAŞIL YARPAQ QIZILGÜL

94. Qızılgülü dererem,
Sinem üste sererem.
Sen yadıma düşende
O gülü iyleyerem.[2]

Bağa girmiş olaydım,
Gülün dermiş olaydım,
Burdan keçen oğlana,
Könül vermiş olaydım.

Açıl, açıl, qızılgül,
Deste-deste düzül gül,
Yara sovgat[3] gönderim,
Yaşıl yarpaq qızılgül.

### HA LEYLİ, LEYLİ, LEYLİ

95. Gedirsen çarx ile gel,
Çirmenib arx ile gel.
Eğer menim yarımsan,
Danışma xalq ile gel.
Ha Leyli, Leyli, Leyli,
Gel şah telli-telli.

Evleri yol üstedir,
Tüfengi qol üstedir.
İsteyirem suya gedem,
Ha Leyli, Leyli, Leyli, Gel
şah telli-telli.

96. Ağaç başı şingile[4],
Şingileni kim bile
On iki söz qoşaram,
Senin kimi ter güle.
A yordu, yordu, yordu,
Görek kim kimi yordu.

Alma atdım hovuza,
Ay nohurdan[5] hovuza.
Şirin sözler qoşaram
Köyneyi qanovuza[6].
A yordu, yordu, yordu,
Görek kim kimi yordu.

Ağaç başında haça[7],
Üstünde güller açа.
Cergenize[8] bir çomaq,
Gedersiz qaça-qaça
A yordu, yordu, yordu,
Görek kim kimi yordu.

1. kusrüvü vastık 2. koklarım 3. armağan 4. kauçuklu bir bitki 5. yağmur sonrasında su birikmiş çökük 6. bir tür ipek kumaş 7. ağaç gövdesi ya da dalında oluşan çatlak, yarılma 8. topluluğunuza

I